

*“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.*
Heydər Əliyev

**Heydər Əliyev - xalq birliyi əbədidir!**

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 22 (1015) | 7 dekabr 2017-ci il | Qiyməti 50 qəpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**




## İlham Əliyev “Bakutel-2017” sərgisi ilə tanış olub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Bakı Ekspo Mərkəzində XXIII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi - “Bakutel-2017” ilə tanış olublar.***

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlət başçısına və xanımına sərgi barədə məlumat verdi.

Bildirildi ki, builki sərgidə 20 ölkədən 192 şirkət iştirak edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilən sərgidə ABŞ, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Finlandiya, Fransa, İsveç, Niderland Krallığı, Türkiyə və digər ölkələr təmsil olunur.

Nazir Ramin Quluzadə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumlarının, müəssisələrinin məhsul və xidmətləri, həyata keçirdiyi layihələri barədə də məlumat verdi.

## Regionların inkişafında sahibkarlığın rolu

***“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası ilə bağlı ölkə iqtisadiyyatının inkişafı, makroiqtisadi sabitliyin təmin olunması və s. istiqamətlərində bir sıra mühüm tədbirlər görülmüşdür. Dövlət proqramının yerinə yetirilməsi çərçivəsində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı və İqtisadiyyat və Kənd təsərrüfatı nazirliklərinin dəstəyi ilə Ağstafa Rayon Mədəniyyət Mərkəzində “Regionların inkişafında sahibkarlığın rolu” mövzusunda regional forum keçirilmişdir. Tədbirdə bir sıra rəsmi şəxslərlə yanaşı, Bakı şəhərindən, Ağstafa, Tovuz və Qazax rayonlarından 200-dən çox sahibkar iştirak etmişdir. Forumda dövlət proqramının yerinə yetirilməsi, sənayenin şəhərlərlə yanaşı regionlarda inkişaf etdirilməsi və digər məsələlər müzakirə olunmuşdur.***

Forumda rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev çıxış etmişdir. Rayonda fəaliyyət göstərən sahibkarlıq subyektləri barədə məlumat verən Məhərrəm Quliyev Ağstafada kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində qabaqcıl təcrübənin olduğuna diqqət yönəldib. Cari ilin 9 ayı ərzində rayonda 1183 nəfər işlə təmin olunmuşdur ki, onlardan da 87,5 faizi daimi iş yeridir.





Tədbirdə Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış etmişdir. M.Musayev qeyd etmişdir ki, qeyri-neft sektorunun inkişaf etdirilməsində sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafı ölkə rəhbərliyinin ən çox önəm verdiyi məsələlərdən olduğunu deyən M.Musayev bildirmişdir ki, fermerlər üçün bir sıra güzəştlərin müəyyən edilməsi, onların torpaq vergisi istisna olmaqla, digər bütün vergilərdən azad edilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi, ayrı-ayrı sahələr üzrə dövlət subsidiyalarının ayrılması kənd təsərrüfatının, bununla yanaşı, regionların inkişafına təkan verməkdədir. Forumda Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev çıxış edərək göstərmişdir ki, ölkə prezidenti kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərir. Subsidiyaların və vergidən azadolma, bu sahədə həyata keçirilən təşviqedici layihələr fermerlər tərəfindən yüksək qiymətləndirilir. Il ərzində daha çox sahibkarlarla görüşdüklərini deyən İlham Quliyev əlavə etmişdir ki, gələcəkdə də sahibkarlarla belə tədbirlər davamlı olacaq.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov öz çıxışında ötən dövrdə Azərbaycanın bölgələrində iqtisadi və sosial inkişafın ən yüksək səviyyədə təmin olunduğunu, rəhbərlik etdiyi rayonun da ölkənin qeyri-neft sektorunun inkişafında xüsusi payının olduğunu qeyd etmişdir. TovuzRayon İcra Hakimiyyəti başçısının müavini Niftalı Qasımov ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı regionlarda həyata keçirilən tədbirlər barədə ətraflı məlumat vermiş, sahibkarlığın inkişafının dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlar və əldə edilmiş uğurlar barədə danışmışdır. Daha sonra Ağstafa rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamlarına söz verilmişdir. Çıxışlar yekunlaşdıqdan sonra sahibkarları və ictimaiyyət nümayəndələrini maraqlandıran suallara cavablar verilmişdir. Tədbirdən sonra forum iştirakçıları “Karvan-L” Eko Sənaye Parkı, “Ağstafa Aqroservis” MMC, “Akkord” tekstil fabriki və “Saloğlu” mebel fabrikinə baxış keçirmiş, oradakı iş prosesi və şəraitlə yaxından tanış olmuşlar.

1.qxd 27.12.2017 15:42 Page 2



# Ağgöl kəndinə təbii qaz verildi



Bölgələrdə yaşayış məntəqələrinin qazlaşdırılmasına dair ölkə başçısının verdiyi tapşırıq hər yerdə olduğu kimi Ağstafada da uğurla həyata keçirilir. Böyük iftixarla demək olar ki artıq rayonun 1-2 kəndi istisna olmaqla bütün yaşayış məntəqələrinə təbii qaz verilmişdi. Bu günlər rayonun mərkəzindən 53 kilometr aralıda yerləşən Ağgöl kəndinə ilk dəfə olaraq təbii qazın verilməsi münasibətilə mərasim keçirilmişdir.



Tədbirdə Ağstafa rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev, Şəmkir Regional Qaz -İstismarı İdarəsinin rəisi Osman Behbudov,rayonun hüquq- mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, eləcə də kənd sakinləri iştirak etmişlər.



Tədbiri giriş sözü ilə açan Rayon İcra hakimiyyətinin başçısı ilk öncə bu münasibətlə kənd sakinlərini təbrik etdi. Bildirdi ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarına uyğun olaraq respublikanın digər şəhər və rayonları kimi, Ağstafa rayonunun da yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Ağgöl kəndində təbii qazın verilməsi ilə ümumilikdə rayonun 39 yaşayış məntəqəsində 38-nə təbii qazın verilməsi təmin olunur. Bu isə o deməkdir ki, yaxın zamanda Böyük Kəsik kəndinə təbii qazın verilməsi ilə Ağstafa rayonu 100 faiz təbii qazla təmin edilmiş rayon olacaqdır. Bu isə ölkə rəhbərliyinin Ağstafaya və ağstafalılara göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir.

Sonra Şəmkir Regional Qaz-İstismar İdarəsinin rəisi çıxış edərək tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, Ağgöl kəndinin qazlaşdırılması üçün 1107 metr daşıyıcı xətt, 6674 metr paylayıcı xətt çəkilmişdir. Kəndin daxilində isə orta təzyiqli qaz xətləri çəkilib, bütün mənzillərə qaz sayğacları və fərdi tənzimləyici quraşdırılıb. Yaşayış məntəqəsinin qazlaşdırılması üçün, ümumilikdə, 7781 metr müxtəlif diametrli dəmir borulardan istifadə olunub. Kənddə 592 nəfər yəni, 100 abonent ilk dəfə "mavi yanacaq"dan istifadə edəcək.

Mərasimdə çıxış edən kənd ictimaiyyətinin nümayəndələri Kəmaləddin Mansurov, Ofeliya Musayeva, Ramiz Şəmilov bütün kənd əhalisi adından bu yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Daha sonra cənab Məhərrəm Quliyev kənd ağsaqqalları ilə birlikdə Ağgöl kəndinə təbii qazın verilməsini ifadə edən rəmzi məşəli alovlandırdılar.



# Şəhər 3 saylı tam orta məktəb binasında son tamamlama işləri görülür



Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən Ağstafa şəhərindəki 3 saylı tam orta ümumtəhsil məktəbin binasında əsaslı təmir işlərinə başlanılmış və bu iş uğurla davam etdirilməkdədir. 1320 şagird yerlik məktəb binasında əsaslı təmir və yenidənqurma işləri artıq başa çatmaq üzrədir.



Rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyev bu günlər növbəti dəfə rayonun bir sıra məsul şəxsləri ilə birgə məktəb binasında olmuş, burada aparılan yenidənqurma işləri ilə yaxından maraqlanmış, tikintini aparan inşaatçılara müvafiq tapşırıqlar vermişdir.

M.Quliyev məktəbdə gedən təmir işləri ilə tanışlıqdan sonra hazır siniflərdə keçilən dərs prosesini də müşahidə etmiş, məktəbin pedaqoji kollektivi ilə söhbət aparmışdır. İcra başçısı ümumən məktəbdə aparılan yenidənqurma və təmir işlərindən razı qaldığını bildirmiş və yaxın zamanda məktəbdə bütün işlərin tam başa çatacağına əmin olduğunu bildirmişdi.

# Ümumdünya Əlillər günü qeyd olundu

3 dekabr Beynəlxalq Əlillər Günü münasibəti ilə Ağstafa şəhər "Yazıçılar Evi"ndə tədbir keçirildi. Tədbirdə Ağstafa rayon icra hakimiyyəti başçısının müavini Aydın Hacıyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Sosial Müdafiə Fondunun Ağstafa rayon şöbəsinin direktor müavini Azər İmamverdiyev çıxış edərək bu münasibətlə əlilləri təbrik etdilər. Ölkəmizdə əlillərə göstərilən yüksək dövlət qayğısından geniş danışdılar. Ağstafa rayonunda da əlillərin sosial rifahları daim diqqət mərkəzində saxlanılır. Bayramlarda onlar yad edilərək sovqatlar paylanılır, birdəfəlik maddi yardımlar olunur. Dövlət başçısının tapşırığına əsasən, ölkəmizdə əlillərin evlə təmin olunması istiqamətində də böyük işlər görülüb və görülməkdədir. Bu insanlar üçün hər il orta hesabla 700-dən çox mənzil tikilir. Ümumilikdə, son illərdə 5 mindən çox Qarabağ müharibəsi əlili və şəhid ailəsi mənzillə təmin olunub. O cümlədən Ağstafada 4 ədəd çoxmənzilli (84 mənzil) və 10 ədəd fərdi yaşayış evi tikilib əlillərin istifadəsinə verilmişdir. Əlillərin minik avtomobilləri ilə təminatı proqramı da həyata keçirilir. Son illərdə Ağstafada 16 əlil minik avtomobili ilə təmin olunmuşdur.

Tədbirdə əlillərə birdəfəlik maddi yardım paylanıldı. Əlillər onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.





# İslam Sülh və Həmrəylik dinidir

Bu günlər şəhər iki saylı tam orta məktəbində "İslam Sülh və Həmrəylik dinidir" mövzusunda tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə rayon icra hakimiyyəti aparatının ictimai, siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, Dini Qurumlarla işin təşkilatçısı Əziz Məsmalıyev açaraq mövzu ətrafında geniş məlumat verdi. O qeyd etdi ki, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən "2017-ci il İslam Həmrəyliyi ili" elan olunmuşdur. Bu onu göstərir ki, ölkəmizin İslam dünyasının birliyinə verdiyi böyük önəmin göstəricisidir. Cənab prezident öz çıxışlarında dəfələrlə İslamı ekstremizm və terrorizmlə eyniləşdirməyə çalışanlara qarşı çıxaraq bu dinin sülh və qardaşlıq dini olduğunu vurğulamışdır.

Ə.Məsmalıyev onuda qeyd etdi ki, rayonda dini qurumlara münasibətlər Azərbaycan Resblikasının Konstitusiyası və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası qanunlarına əsasən qurulur.

Tədbirdə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin İçtimaiyyətlə Əlaqələr şöbəsinin işçisi Ramin Baxşəliyev və Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin bölgə üzrə şöbə müdiri Rasim Tağıyev çıxış edərək Dövlət-Din münasibətlərinin beynəlxalq hüquq normalarına uyğun tənzimlənməsi və ölkədəki tolerantlıq mühitinin qorunub saxlanması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verdilər.

1.qxd 27.12.2017 15:42 Page 3



# Saz sənəti mədəniyyətimizin qollarından biridir





Bu günlər Ağştafa şəhər Heydər Əliyev Mərkəzində Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Ağstafa, Qazax və Tovuz rayonlarından, eləcə də Gürcüstan respublika-



sının Marneuli rayonundan olan aşıqların iştirakı ilə "Sazımızın qüdrəti, sözümüzün hikməti" adlı geniş konsert proqramı keçirilmişdir.

Tədbir iştirakçıları ilk öncə Heydər Əliyev Mərkəzinin önündə Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzdülər. Mərkəzin həyətində təşkil olunmuş sərgilərə, yeniyetmə və gənclərin əl işlərindən ibarət kompazisiyalara tamaşa etdilər və balaca aşıqlardan ibarət xor kollektivlərinin ifasını dinlədilər.

Mərkəzin böyük akt zalında tədbiri giriş sözü ilə Ağstafa rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev açaraq bildirdi ki, aşıq sənəti Azərbaycan xalq ədəbiyyatının və mədəniyyətimizin dərin qollarından biridir. Ağstafalıların həmişə aşıq sənətinə böyük dəyər verdiyini və ölkəmizdə ilk dəfə olaraq məhz saza Ağstafada heykəl qoyulduğunu bildirdi. Qədim mədəniyyət irsinə malik olan aşıq sənətinin son dövrdə dünyada inkişaf etdirilməsi H.Əliyev Fondunun Prezidenti YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Bu uğur Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasətin və xalqımızın mədəniyyətinə göstərdiyi yüksək qayğısının nəticəsidir.

Sonra Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsinin rəisi Ramiz Quliyev çıxış edərək aşıq sənətinin inkişaf etdirilməsi məqsədilə idarə tərəfindən həyata keçirilmiş tədbirlər barədə məlumat verdi.

Tədbir aşıqların təqdimatında geniş konsert proqramı ilə davam etdirildi. Konsert proqramı tamaşaçıların yaddaşında xoş təsuratlı izlər buraxdı. Sonda rayon rəhbərliyi aşıqlarla xatirə şəkili çəkdirdi.



## Baramaçılğn inkişafına diqqət artırılır

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin respublikamızda ənənəvi təsərrüfat sahələrində olan baramaçılığın inkişafına dair verdiyi tapşırıq və göstərişlər ciddi nəzarətdə saxlanılır. Ağstafa rayonu üçün də ənənəvi sahə hesab edilən baramaçılıq yenidən bərpa olunmuşdur. Cari ildə rayonun ayrı-ayrı yaşayış məntəqələrində yetişdirilən barama itgisiz yığılaraq qəbul məntəqələrinə təhfil verilmiş və bu sahədən nəzərdə tutulduğundan qat-qat çox gəlir götürülmüşdür.

Baramaçılığın inkişfının daha da sürətləndirilməsi istiqamətində bu gün də zəruri olan bütün tədbirlər görülür. Bu məqsədlə ölkə rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq Ağstafa rayonunun ərazisində tut tinglərinin əkini işləri aparılır. Bu günlər rayonun Eynallı kəndinin 4 hektar sahəsində 3min ədəd tut tingi əkilmişdir. Görülən işlər bu sahədə gələcəkdə daha bol məhsulun yetişdirilməsinin təməlidir. Bu kimi tədbirlərin digər yaşayış məntəqələrində də həyata keçirilməsi nəzərdə tutulur.

## *Redaksiyamızın qonağı*

# Təhsildə keyfiyyət əsas şərtdir

***Azərbaycan Respublikası Təhsil nazirinin 28 avqust 2017-ci il tarixli 261 nömrəli əmri ilə2017-2018-ci dərs ili "Ümumi təhsildə keyfiyyət ili" elan edilmişdir.Bununla əlaqədar ölkəmizin hər yerində əməli tədbirlər görülür, təhsilin keyfiyyərinin daha da yaxşılaşdırılması üçün bütün imkanlardan səmərəli istifadə edilir. Bu istiqamətdə rayonumuz təhsil müəssisələrində də ötən müddətdə xeyli iş görülmüşdür. Görülmüş işlər, həyata keçirilən tədbirlər barədə oxucularımıza məlumat vermək üçün Rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Əli Əliyevi redaksiyamıza dəvət etmiş və ondan müsahibə götürmüşük. Ə.Əliyev ona verilən sualları cavablandıraraq demişdir:***

- Ölkəmiz üçün müasir düşüncəli və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasında kütləvi təhsil sahəsi olan ümumi təhsil xüsusi əhəmiyyətə malikdir. Ona görə də ümumi təhsilin səmərəlilik və effektivliyinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə tələbyönlü şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi daim diqqət mərkəzinə çəkilən mühüm vəzifə hesab olunmuşdur.Odur ki,ümumi təhsil sahəsində müasir dövrün çağırışlarına əsaslanmaqla inkişafı şərtləndirən keyfiyyət dəyişikliklərinə nail olmaq və bu prosesdə yerli təhsili idarəetmə orqanlarının, məktəb pedaqoji kollektivlərinin imkanlarını səfərbər etmək məqsədilə Azərbaycan Respublikası Təhsil nazirinin müvafiq əmri ilədərs ili "Ümumi təhsildə keyfiyyət ili" elan edilmiş, eyni zamanda həmin əmrlə Nazirliyin Fəaliyyət planı təsdiq edilmişdir.

-Bildirirəm ki, Təhsil Nazirliyinin Fəaliyyət planının icrası ilə əlaqədar Rayon Təhsil Şöbəsi tərəfindən bir çox işlər görülmüşdür. Belə ki, Fəaliyyət planı rəhbərlik və icra üçün qəbul edilmiş, Rayon Təhsil Şöbəsi Şurasının 16 sentyabr 2017-ci il tarixli 01saylıiclasında bu əmrin məzmunu məktəb rəhbərlərinə çatdırılmış, qarşıda duran vəzifələr müzakirə edilmiş, Fəaliyyət planına uyğun olaraq görüləcək işlər müəyyənləşdirilmişdir.Bundan başqa "Ümumi təhsildə keyfiyyət ili" çərçivəsində nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı Ağstafa rayon Təhsil Şöbəsinin Fəaliyyət planı tərtib edilmiş, geniş şəkildə müzakirə edilmiş və RTŞ-nin müdiri Kamran Abbasovun imzaladığı 20 sentyabr 2017-ci il tarixli 120 nömrəli əmrlə təsdiq olunmuşdur.

Rayon Təhsil Şöbəsi Şurasının 20 oktyabr 2017-ci il tarixli 02 saylı iclasında isə ümumi təhsil müəssisələrinin direktorlarının iştirakı ilə son üç ildə rayon üzrə buraxılış sinif şagirdlərinin imtahan nəticələri, son beş ildə respublikanın ali məktəblərinə qəbulun nəticələri, əlaçıların, əla və yaxşı, kafi qiymət alanların statistikası, buraxılış siniflərində təhsil alan şagirdlərin fənlər üzrə illik qiymətləri, respublika fənn olimpiadalarında iştirakedənlərinnəticələri geniş təhlil edimişdir. Bu məqsədlə rayon üzrə tərtib olunmuş reytinq cədvəlləri nümayiş etdirilərək Şura üzvləri və iştirakçıların nəzərinə çatdırılmışdır.

Eyni zamanda rayonun bütün ümumtəhsil məktəblərinin pedaqoji şura iclaslarında Nazirliyin Fəaliyyət planı müzakirə edilmiş, məktəblərin Fəaliyyət planları hazırlanmış və direktorların müvafiq əmrləri ilə təsdiq edilmişdir. Fəaliyyət planının icrasını daha yüksək şəkildə icra etmək üçün rayonun bütün zonaları üzrə iclasların keçirilmə qrafiki tərtib edilmişdir. Həmin qrafikə uyğun olaraq rayonun 11 məktəbində - Ağstafa şəhər 2 nömrəli, Köçəsgər kənd 1 nömrəli, Dağ Kəsəmən kənd 1 nömrəli, Aşağı Göycəli, Kolxəlfəli, Muğanlı, Tatlı kənd və digər məktəblərdə ətraf məktəblərin pedaqoji kollektivlərinin



nümayəndələri və valideynlərin iştirakı ilə müvafiq iclaslar keçirilmişdir. Zona iclaslarında Rayon Təhsil Şöbəsinin məsul işçiləri Fəaliyyət planı və bu istiqamətdə görülmüş və görüləcək işlər barədə məruzələr etmiş, pedaqoji kollektivlər və valideynləri maraqlandıran məsələlərə bağlı qarşıya çıxan sualları cavablandırmışlar. Keçirilmiş iclaslar barədə müvafiq protokollar tərtib edilmiş və Təhsil Nazirliyinə göndərilmişdir.

Fəaliyyət planının icrası ilə əlaqədar 2016-2017-ci dərs ilində ali məktəblərə qəbulu olmayan Ağstafa şəhər 3№-li, Tatlı və Köçəsgər kənd 2№-li tam orta məktəblərin pedaqoji kollektivlərinə zəruri metodiki köməklik göstərilməsi ilə əlaqədar həmin məktəblərdə monitorinq aparılmış, müəllimlərə fənnlər üzrə perspektiv və gündəlik planlaşdırmaların hazırlanması, məktəbdaxili qiymətləndirmənin aparılması, kiçik summativ qiymətləndirmə materiallarının hazırlanması və s. məsələlərlə bağlı lazımitövsiyələr verilmiş,fənlər üzrə dərslər dinlənilmişdir. Monitorinqin nəticələri Təhsil Şöbəsi Şurasının 20 noyabr 2017-ci il tarixdə keçirilmiş 3 saylı iclasında geniş şəkildə müzakirə edilmiş və müvafiq qərar çıxarılmışdır.

Bundan başqa "Ümumi təhsildə keyfiyyət ili" çərçivəsində pedaqoji mühazirələrin keçirilməsi Qaydaları da müzakirə olunmuş, bu barədə məktəb direktorlarına müvafiq tapşırıq verilmişdir. 2018-ci il yanvar ayının sonuna qədər məktəblər üzrə pedaqoji mühazirələr Rayon Təhsil Şöbəsinə təqdim olunacaq və yekunda seçiləcək iki ən yaxşı pedaqoji mühazirə Təhsil Nazirliyinə göndəriləcəkdir.

Təhsil Nazirliyinin Fəaliyyət planında nəzərdə tutulduğu kimi, yaxın günlərdə rayon məktəblərinin ibtidai pilləsində və buraxılış siniflərində təhsil alan şagirdlərin mövcud tələblərə uyğun oxu, yazı və riyazi bacarıqlarının öyrənilməsi məqsədi ilə sınaq imtahanlarının keçirilməsi nəzərdə tutulmuşdur.

Fəaliyyət planının icrası istiqamətində işlər davam etdirilir.

***İbrahim Əliyev***

1.qxd 27.12.2017 15:42 Page 4



# "Keşikçidağ" mağara kompleksi müqəddəs yerdir



Tarixi keçmişimizdən xəbər verən füsunkar mənzərəsi ilə göz oxşayan "Keşikçidağ" qoruğunun əməkdaşları Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü, Ağstafa rayon İcra Hakimiyyətinin dəstəyi ilə tarixi abidələrin tanıdılması və təbliğ olunması məqsədilə həm yerli, həm də beynəlxalq elmi-konfranslarda iştirak etmişdirlər. Bu ildə Çin Xalq Respublikasında təşkil olunan Beynəlxalq Forumda iştirak etmək üçün qoruq əməkdaşları dəvət məktubu almışdırlar.

Bununla əlqədar olaraq27-29 oktyabr tarixlərində Çin Xalq Respublikasında təşkil olunan "III Beynəlxalq Mural Forumu"nda iştirak etmək üçünilk olaraq "Keşikçidağda turizm inkişaf perspektivləri" adlı elmi məruzə göndərilmişdir. Göndərilmiş elmi məruzə təşkilatçılarda böyük maraq oyatdığından "III Beynəlxalq Mural Forumu"nun gündəliyinə salınaraq "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru Musa Mursaquliyevin iştiraki təmin edilmişdir.

"III Beynəlxalq Mural Forumu"nda mağaraların divar və tavanlarına yağlı boya ilə işlənmiş dini mövzuda rəsm əsərlərinin (freskalar) rəngarəngliyindən söhbət açılmışdır. Həmçinin konfransda iştirakçıların diqqətinə çatdırılmışdır ki, tolerant bir ölkə olaraq Azərbaycanda müxtəlif dövrlərdə yaradılmış, fərqli dini etiqadlara xidmət edən abidələrə münasibət həmişə müsbət olmuşdur. Həmin abidələrdən biri olan "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğundakı maddi-mədəniyyət nümunələri fiziki təsirlərə məruz qalmasına baxmayaraq, öz tarixi simalarını indiyədək qoruyub saxlaya bilmişlər. Mağara-məbədlərin həm müqəddəs yer kimi ziyarət edilməsi, həm də oraya turistlərin cəlbi dini azadlığın, tolerantlığın təntənəsi olmaqla yanaşı, bu abidələrin dünyaya tanıdılmasında əhəmiyyətli olar.

# Məktəbli güləşçimiz erməni idmançısını məğlub etdi

Bu il noyabr ayının 21-25-də İran İslam respublikasının paytaxtı Tehran şəhərində kiçik yaşlı yeniyetmə güləşçilər arasında beynəlxalq turnir keçirilmişdir.

Azərbaycan Milli komandasını 47 kiloqram çəki dərəcəsində Soyuqbulaq qəsəbə tam orta məktəbinin 10-cu sinif şagirdi Ruslan Şıxıyev təmsil etmişdi. Gənc güləşçimiz bu turnirin bütün mərhələlərində uğurla çıxış etmiş, fəxri kürsünün ən yüksək pilləsində ölkəmizi təmsil etmişdi.

Ruslan Şıxıyev 47 kiloqram çəki dərəcəsində səkkizdə bir finalda İran güləşçisinə, dörddə bir finalda isə Ermənistan güləşçisinə ən yüksək hesabla qalib gəlmiş və yarımfinala vəsiqə almışdır. Bu yarışda Ukrayna təmsilçisinə qalib gələrək final mərhələsinə çıxan Ruslan İran idmançısı üzərində daha böyük qələbə çalaraq finala çıxmışdı.

Beynəlxalq turnirdə bütün rəqiblərini məğlub edən gənc məktəblimiz şəxsi görüşlərdə birinci yerə, komanda hesabına görə isə ikinci yerə layiq görülmüşdür.



Bu günlər rayona böyük qələbə ilə qayıdan gənc güdəşçi R.Şıxəliyevlə RTŞ-də görüş ekçirilmiş və ona RTŞ-nin, Gənclər və İdman idarəsinin fəxri fərmanı, qiymətli hədiyyələr verilmişdi.

# Uşaqların hüquqları və vəzifələri





Bu günlər rayon Təhsil şöbəsinin iclas zalında Uşaq Hüquqları və Vəzifələri nədir mövzusunda "Dəyirmi masa" keçirilmişdi. Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Bədii qiraət" dərnəyinin rəhbəri Leyla Abdullayeva tədbirdə mövzu ilə bağlı çıxış etmiş və tədbir iştirakçılarına müraciət edərək demişdi:

-Əziz dostlar, böyüklər bir çox haqlara malikdirlər. Onların əsasları "İnsan Haqlarının Ümumi Deklorasiyası"nda göstərilmişdi. Belə olan halda siz deyin görək uşaqların haqları varmı? Dərnək üzvləri hamısı bir ağızdan dedilər. Bəli vardır.

Leyla Abdullayeva dərnək üzvlərinə və eləcə də tədbirdə iştirak edən digər dərnəyin üzvlərinə, bütün dərnək rəhbərlərinə "Uşaq Haqları Konvesiyası" haqqında geniş məlumat verdi. Dərnək üzvləri də keçirilən tədbirdə fəal iştirak etdilər və onların bu cür hazırcavablıqları hamını çox sevindirdi. Bütün bunlar onu göstərdi ki, biz gələcəyimiz olan körpələrimizə nəyisə öyrədə, mənimsədə bilirik.

Tədbir zamanı dərnək üzvlərinin əl işlərindən ibarət kiçik bir sərgiyə də baxış keçirildi.

***Mətanət İsayeva,***
***Uşaq Gənclər İnkişaf Mərkəzinin direktoru.***

# Kəndimizin körpələr evi

Artıq bir neçə ildir ki, kəndimizdəki 1 saylı körpələr evi uşaq bağçasında işləyirəm. Uşaq baxçamızın əvvəlki illərdəki vəziyyətini xatırlayanda, bugünkü şəraitimizlə müqayisə edəndə təkcə mən yox işçilərimiz də, valideynlər də Allaha şükürlər edir və bu şəraiti bizim üçün yaradan dövlət başçımıza minnətdarlığımızı bildiririk.

3 il bundan öncə əsaslı təmir olunan uşaq baxçamızda bu gün uşaqların sağlam və gümrah böyümələri üçün hər cür şərait vardır. Kollektivimizdə 15 nəfər işçivardır ki, onlar hazırda 35 nəfər uşağın tərbiyəsi, sağlam böyümələri üçün əllərindən gələni edirlər. Gün ərzində uşaqlara demək olar ki, 3 dəfə yemək və çay veririk. Uşaqlarını bizə etibar edən valideynlər baxçamızın işçilərindən həmişə razılıq edirlər. Onlar uşaq tərbiyə müəssisəmizin tərbiyəçiləri Yeganə Hüseynovanın, Şəhanə Abdullayevanın, Gülxar Hacıyevanın əməyini yüksək qiymətləndirirlər. Biz çalışırıq ki, işimizi həmişə bu qaydada davam etdirək, kəndimizin sakinlərinin etimadını layiqincə doğruldaq.



***Təranə Tanrıverdiyeva***
***Poylu kənd 1 saylı uşaq baxçası körpələr evinin müdiri.***

# Yeni il şənliyi keçirilərkən təhlükəsizliyi qaydalarına əməl olunmalıdır

Təqvim ilinin dəyişməsi-Yeni il bayramı dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olmuşdur. Hər il dekabr ayının sonu, yanvar ayının əvvəllərində evlərdə, təhsil ocaqlarında, istirahət parklarında və digər obyektlərdə yolkalar qurulur, onlar müxtəlif bəzək əşyaları il bəzədilərək işıqlandırılır. İnsanlar, xüsusən uşaqlar yolkanın ətrafında təşkil olunan şənlikdə iştirak edir, əylənirlər.

Insanların bir yerə toplaşdıqları bu Yeni il şənliklərində onların təhlükəsizliyinin qorunması vacibdir. Xüsusən atəşfəşanlıqla müşayiət edilən belə şənliklərdə yanğın təhlükəsi ehtimalı çox olduğundan yanğın təhlükəsizliyi qaydalarını bilmək və ona əməl etmək olduqca vacibdir. Ona görə də Yeni il şənliyi keçirilən obyektlərin rəhbərləri, şənlik iştirakçıları bilməlidirlər ki, mülkiyyət formasından asılı olmayaraq bütün obyekt və müəssisələrdə (sahibkarlıq subyektlərində və s.) yanğın təhlükəsizliyinin təmin edilməsində cavabdehlik onların rəhbərlərinin üzərinə düşür.

Obyektin bütün işçiləri yanğına qarşı təlimatlandırılmalı və onlar baş verə biləcək yanğın hadisəsi zamanı vəzifələrini dəqiq bilməlidirlər!

Ehtiyat çıxış yollarının qarşısı əşyalarla tutulmamalı və sərbəst çıxışa mane olan qurğular quraşdırılmamalıdır. Köçürmə yolları işıqlandırılmalı və birbaşa çıxışa doğru açılması təmin edilməlidir.

Tədbir zamanı yanğın baş verdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xəttinə zəng vuraraq məlumat vermək lazımdır!

Işıqlandırıcı vasitələr dərhal şəbəkədən ayrılmaqla söndürülməlidir!

Tədbir iştirakçılarının dərhal təxliyə olunmasına başlanılmalıdır!

Əldə olan vasitələrlə yanğının söndürülməsinə başlamaq lazımdır!

***Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

# Etibarsız sayılır

Zəlimxan kənd sakini Məmmədov Məcid Bəhmən oğlunun adına olan 490 nömrəli Qeydiyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa rayon sakini Hacıyev Habil Abbas oğluna Qazax rayonundakı "N" sayli hərbi hissədən verilmiş Hərbi şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

* * *

Aşağı Göycəli kənd sakini, mərhum Musayev Musa Oruc oğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN-41F nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa şəhər sakini Həsənov Nadir Allahverdi oğlunun adına verilmiş 425 nömrəli Qeydiyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

***Redaksiya heyəti***
*L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*